# Dağ rayonu Lerik: uğurlar və problemlər

**Mükəmməl islahatlar konsepsiyasının müəllifi olan Prezident İlham Əliyev müasir Azərbaycanın iqtisadi inkişaf modelini yaradıb və bu model dövlətimizin ümumi siyasətinin ayrılmaz tərkib hissəsi olmaqla respublikamızın iqtisadi tərəqqisinə, dünya birliyində mövqeyinin möhkəmlənməsinə, inkişaf etmiş güclü dövlətlər sırasında yer almasına zəmin yaradır.**





Uğurlu, qətiyyətli siyasət, həyata keçirilən dövlət proqramları və makroiqtisadi layihələr ölkə iqtisadiyyatını daha da inkişaf etdirir.

Növbəti strateji dövrdə Azərbaycanı qüdrətli dövlətə və yüksək rifah cəmiyyətinə çevirmək üçün mövcud sosial-iqtisadi modelin məzmununun və strukturunun əhəmiyyətli dərəcədə yenilənməsi prioritet vəzifə kimi qarşıya qoyulub. Bu, dövlət başçısının 22 iyul 2022-ci il tarixli sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda icrası nəzərdə tutulan tədbirlərdə də öz aydın ifadəsini tapıb.

Azərbaycanda 2004-cü ildən başlayaraq həyata keçirilən regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası nəticəsində bölgələrdə geniş quruculuq və abadlıq işləri görülüb, çoxsaylı infrastruktur layihələri həyata keçirilib, müxtəlif profilli istehsal müəssisələri, sosial obyektlər fəaliyyətə başlayıb və minlərlə yeni iş yeri açılıb. Bütün bunlar hər bir rayonun, kəndin və qəsəbənin simasını dəyişməklə bərabər, əhalinin rifah halının yüksəldilməsinə, sosial problemlərinin həllinə rəvac verib.

Regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramları ölkənin hər yerində olduğu kimi, Lerik rayonunda da uğurla icra edilmişdir. Rayonda yeni infrastruktur yaradılmış, təhsil, səhiyyə, mədəniyyət obyektləri inşa edilmiş, sahibkarlığın inkişafı yeni mərhələyə qədəm qoymuş, yeni avtomobil yolları inşa edilmiş, qaz və su xətləri çəkilmiş, elektrik təsərrüfatı yenilənmişdir. 10 mindən yuxarı yeni iş yeri yaradılmışdır. Bütün sahələrdə inkişaf qeydə alınmışdır. Lerik şəhəri daxil olmaqla rayonun kəndlərində də abadlıq-quruculuq işləri aparılmışdır.

2024-cü ilin birinci yarısında 589, o cümlədən 342 daimi, 247-i isə müvəqqəti iş yerləri yaradılmışdır. Ümumilikdə isə 2003-2023-cü illər və 2024-cü ilin birinci yarısı ərzində 21 min 146 yeni iş yeri açılmışdır ki, bunun da 40 faizindən çoxu daimi iş yerləridir.

Son illər ölkə rəhbərinin yaratdığı şəffaf mühitdən bəhrələnən rayon sakinləri arasında sahibkarların, o cümlədən fiziki şəxslərin sayı daha da artmışdır ki, bu da öz növbəsində yeni iş yerlərinin açılması deməkdir. Rayon üzrə fəaliyyət göstərən 111 dövlət müəssisəsində 5 min 400 nəfərdən çox rayon sakini işləyir. Bundan başqa, 300-ə yaxın sahibkarlıq subyektində və özəl müəssisədə isə min nəfərdən çox lerikli işlə təmin edilmişdir.

Lakin onu da demək lazımdır ki, rayonda iritutumlu özəl müəssisələr fəaliyyət göstərmədiyindən, hazırda digər müəssisə və təşkilatlarda əsasən regionlaşma prosesləri getdiyindən, habelə mövcud təşkilatlarda vakant iş yeri olmadığından işədüzəlmədə ciddi çətinliklər var. 2024-cü il ərzində sosial müdafiəyə ehtiyacı olan şəxslərin özünüməşğulluq proqramına cəlb olunması istiqamətində işlər davam etdirilmiş və 15 nəfər xidmət sahələrində özünüməşğulluq proqramına cəlb olunmuşdur. Qarşıdakı aylarda da rayon sakinlərinin özünüməşğulluq proqramına cəlb olunması ilə bağlı əlaqədar qurumlar tərəfindən müvafiq işlər davam etdirilir.

2024-cü ilin birinci yarısında rayonda kənd təsərrüfatı sahəsində məhsul istehsalı artmış, tikinti-quruculuq sahəsində xeyli işlər görülmüşdür. Cins mal-qaranın yetişdirilməsi ilə əlaqədar 118 baş heyvanda süni mayalanma aparılmış, 79 baş sağlam buzov əldə edilmişdir. İribuynuzlu mal-qaranın baş sayı 37 min 689 baş, yəni 2023-cü ilin müvafiq dövrünə nisbətən 1071 baş az, qoyun və keçilərin sayı 84 min 184 baş, 7 min 45 baş az, quşların sayı isə 71 min 982 baş, yəni 1181 baş çox olmuşdur. Qoyun və keçilərin sayının kəskin surətdə azalması rayonun qoyunçuluq təsərrüfatlarına təhkim olunmuş qış otlaq sahələrinin geri alınması ilə əlaqədardır.

Təsərrüfatlarda 21 min 885 sentner ət 2023-cü ilin müvafiq dövrünə nisbətən 3 min 649 sentner çox, 150 min 252 sentner süd - 1137 sentner çox, 4 min 699 min ədəd yumurta - 479 min ədəd az istehsal olunmuşdur.

2023-cü ilin payızında 2024-cü ilin məhsulu üçün rayon üzrə 3 min 221 hektar sahədə payızlıq taxıl bitkiləri əkilmiş, 2 min 961 hektarı buğda, 135 hektarı çovdar, 125 hektarı arpa olmuşdur. Məhsuldarlıq orta hesabla 23 sentner, yəni builki hava şəraiti ilə bağlı olaraq ötən ilə nisbətən 1 sentner azalmışdır.

Biçində 17 kombayn iştirak etmişdir. Rayon üzrə ümumilikdə 212 kənd təsərrüfatı texnikası var. Mövcud texnikalardan 175 ədədi saz, o cümlədən 18 ədəd təkərli, 7 ədəd tırtıllı traktor, 1 ədəd ekskavator, 3 ədəd buldozer, 2 ədəd otpresləyən, 6 ədəd qoşqu nasazdır.

Rayonda il ərzində orta hesabla 120 min tondan çox ekoloji cəhətdən təmiz bal istehsal olunur. Balın sənaye üsulu ilə qablaşdırılması bu sahənin daha da inkişafına şərait yaradacaq. Azərbaycan Hökumətinin və ABŞ-nin Beynəlxalq İnkişaf Agentliyinin (USAID) maliyyə dəstəyi ilə Sosial İqtisadi İnkişaf Proqramı (SEDA) çərçivəsində keçən illərdə Piran kənd icması ilə birlikdə Piran kəndində bal emalı sexi fəaliyyətə başlasa da, sonradan müvafiq sənədləşmə işlərində problemlər yarandığından sexin fəaliyyəti dayandırılmışdır. Mini süd qəbulu və ət tədarükü məntəqələrinin, meyvə emalı müəssisələrinin yaradılması əhalinin məşğulluğunu təmin edəcək. Vaxtilə rayonda 3 min 500 hektar üzüm plantasiyaları, iki üzüm emalı zavodu fəaliyyət göstərmişdir. Məlum hadisələrdən sonra bütün üzümlüklər ləğv edilmiş, zavodlar fəaliyyətini dayandırmışdır. 700 nəfər sakinin işlədiyi xalça fabriki mövcud olmuşdur. Bu sahələrin inkişafı işsizliklə bağlı problemləri qismən aradan qaldıracaq.

Lerik Rayon İcra Hakimiyyəti başçısı yanında mənzil komissiyası mənzilə ehtiyacı olan Qarabağ müharibəsi əlilləri, şəhid ailələri, Çernobıl əlilləri, hərbçilər və digər kateqoriyadan olan şəxslərin müraciətlərini nəzərə alaraq onların rayon icra hakimiyyətinin müvafiq sərəncamları ilə mənzil növbəsinə götürülməsini təmin etmiş, növbədə olan imtiyazlı şəxslər haqqında məlumatlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim olunmuşdur. Hazırda 245 nəfər imtiyazlı şəxs qismində mənzil növbəsindədir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün 2020-2022-ci illərdə 50-dən yuxarı fərdi yaşayış evinin tikintisinə başlanılmış, 20-dən çox yaşayış evi sakinlərin istifadəsinə verilmişdir. Tikintisinə başlanılmış 17 fərdi yaşayış evinin tikinti işləri maliyyə vəsaiti ayrılmadığından dayandırılmış, 2 Qarabağ müharibəsi əlili üçün isə yaşayış evinin ancaq bünövrə hissəsi tikilmişdir. Digər evlərin tikintisinin isə 2024-cü ildə başa çatdırılması nəzərdə tutulmuşdur.



2010-cu ildən başlayaraq təbii fəlakət nəticəsində evləri zərər çəkmiş vətəndaşlar üçün Fövqəladə Hallar Nazirliyi tərəfindən rayonda yeni fərdi yaşayış evlərinin tikintisi həyata keçirilir. Keçən müddət ərzində 50-dən yuxarı fərdi yaşayış evi inşa edilərək evləri qəza vəziyyətinə düşmüş vətəndaşlara təhvil verilmişdir. Hazırda 11 yaşayış evinin tikintisində işlər davam etdirilir. 2024-cü ildə 20-yə yaxın yeni yaşayış evinin tikintisi həyata keçiriləcək.

Rayonda 106 ümumtəhsil məktəbi, 13 uşaq bağçası var. 2003-cü ildən bəri rayonda 81 məktəb inşa edilmiş, 9 məktəb binası isə əsaslı təmir edilmişdir. Artıq təhsil müəssisələrinin 86 faizi yeni inşa edilmiş və ya əsaslı təmir olunmuşdur.

Rayon üzrə mövcud olan 162 yaşayış məntəqəsinin 33-də yay aylarında su qıtlığı yaranır. Bu da rayon əhalisinin 35,8 faizini, yaşayış məntəqələrinin isə 20,3 faizini təşkil edir. Yay aylarında bulaqlarda suyun azalması səbəbindən suya tələbat artır. Sakinlər suyu daha uzaq məsafələrdən yük heyvanları və digər nəqliyyat növlərindən istifadə etməklə daşıyırlar. Su təminatında problem yaranan 33 yaşayış məntəqəsində artezian quyuları qazmaqla, yaxın məsafələrdə yerləşən bulaq və çaylardan ərazilərə su xətti çəkməklə problemin həllinə nail olmaq mümkündür. Qarşıdakı illərdə Buruq, Murya, Barzavu, Soru, Bradi, Siyov, Nuravud, Blaband, Tikəband, Pirəsora, Kələxan, Qosmalıan kəndlərində artezian quyularının qazılması nəzərdə tutulmuşdur.

Heydər Əliyev Fondunun sifarişi ilə podratçı təşkilat tərəfindən Piran kəndində əhalinin içməli su təminatının yaxşılaşdırılması ilə əlaqədar olaraq 3,5 kilometrlik məsafədən su xətti çəkilmiş, kənddaxili xətlərin tikintisi başa çatdırılmış, abonentlər üçün sayğaclar quraşdırılmışdır. Tikintidə son tamamlanma işləri aparılmalıdır. Lakin məlum olmayan səbəblərdən tikinti başa çatdırılmır və suyun əhaliyə çatdırılması həyata keçirilmir.

Rayonun əkin sahələri əsasən dəmyə şəraitində becərilir. Lakin rayonun Qosmalıan, Kələxan, Pirəsora, Orand, Çayrud, Mistan, Monidigah kəndlərinin ərazilərində suvarmadan istifadə edilir. Çayrud, Rvarud, Pirəsora, Qosmalıan, Kələvəz, Göydərə və digər yaşayış məntəqələrində əhali tərəfindən tikinti norma və qaydalarına əməl edilmədən inşa edilən sututarlardan, göllərdən istifadə olunur. Bu da texniki cəhətdən yolverilməz olduğundan vətəndaşların həyatı və əmlakı üçün ciddi təhlükə yaradır. Keçən ilin oktyabr ayında Rvarud kəndində mövcud olan gölün daşması nəticəsində Rvarud və Çayrud kənd sakinlərinin şəxsi təsərrüfatlarına ciddi ziyan dəymişdir. Həmin ərazilərdə kənd təsərrüfatı bitkilərinin becərilməsi üçün yeni sututarların quraşdırılmasından ötrü Nazirlər Kabineti və digər əlaqədar qurumlar qarşısında məsələ qaldırılmışdır. Yeni sututarların inşası 5 min hektara yaxın əkinəyararlı torpaq sahələrində məhsuldarlığın daha da artırılmasına şərait yaradacaq.

Azərbaycan Respublikası Prezidentinin Lerikə ən böyük hədiyyələrindən biri də rayona mavi yanacağın verilməsidir. Dövlət başçısının qayğı və diqqəti ilə artıq rayonun 61 yaşayış məntəqəsi tam qazlaşdırılmışdır. Hazırda rayonun 4 yaşayış məntəqəsinin qazlaşdırılmasında tikinti işləri həyata keçirilir.

15 min nəfərdən yuxarı əhalisi olan 17 yaşayış məntəqəsinin dövlət meşə fondu torpaqlarında yerləşməsi ilə bağlı rayonda yaranan problemlər bir əsrdən artıqdır ki, həllini tapmır. Həmin kəndlərin altında 477 hektar torpaq sahəsi vardır. Bu ərazilərdə uzun illərdir ki, əhali məskunlaşmış, yaşayış evləri tikilmiş, meşə ilə örtülü olmayan sahələrdə əkin işləri aparılmışdır. Bununla əlaqədar dəfələrlə rayon meşə mühafizəsi və bərpası müəssisəsi ilə əhali arasında narazılıq yaranmışdır. Məsələnin həlli ilə bağlı rayon icra hakimiyyəti tərəfindən Nazirlər Kabineti qarşısında məsələ qaldırılmış, İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Kənd Təsərrüfatı Nazirliyinə müraciət edilmişdir. Əlaqədar qurumlar tərəfindən məsələnin həlli ilə bağlı iş davam etdirilir.

Uşaqların istirahətinin səmərəli təşkili ilə bağlı Lerik şəhərində uşaq-əyləncə meydanı salınmış, müxtəlif növ attraksionlar quraşdırılmışdır.

"Azərişıq" ASC tərəfindən Çayrud, Lüləkəran və Orand kəndlərində 10/04 kv-luq elektrik dirəklərinin bir hissəsi yeniləri ilə əvəzlənmiş, xətlər SİP kabelləşdirilmişdir. Kəndlərdə müasir transformatorların quraşdırılması nəzərdə tutulmuşdur. Çayrud kəndində nəzərdə tutulan tikinti işləri qismən başa çatdırılsa da, Orand və Lüləkəran kəndlərində 2022-ci ilin ikinci yarısından sonra tikinti işləri məlum olmayan səbəblərdən dayandırılmışdır. Hazırda Züvüc və Zövnə kəndlərinin elektrik hava xətlərinin yenidən qurulması işləri davam etdirilir.

110 yaşayış məntəqəsində Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin sifarişi ilə podratçı tikinti təşkilatı tərəfindən "GPON" layihəsinin icrasına başlanılmışdır. Növbəti aylarda rayonun telefon və internet olmayan bütün kəndlərinin tam GPON texnologiyası ilə telefon-internet xidmətinə qoşulması həyata keçiriləcək.

İqtisadiyyat Nazirliyi Sahibkarlığın İnkişafı Fondunun vəsaiti hesabına 2024-cü ilin birinci yarısı ərzində müvəkkil kredit təşkilatlarından rayon üzrə sahibkarlar üçün 69 layihə üzrə 1916,5 min manat kredit ayrılmışdır. Lerik şəhərində inşa edilən şadlıq sarayında tikinti işləri cari ildə də davam etdirilmişdir. "Relax", "Təbəssüm", "Meşəbəyi" və digər turizm istirahət mərkəzlərində yeni hotellər, istirahət meydançaları tikilir, yenidənqurma işləri aparılır.

Kənd sakinlərinin şəxsi təşəbbüsü və maliyyə dəstəyi ilə Çayrud, Pirəsora, Gürdəsər, Tikəband, Soru və Monidigah kəndlərində abadlıq, yenidənqurma işləri həyata keçirilir. Çayrud, Tikəband, Gürdəsər, Cəngəmiran, Qələbin, Lüləkəran, Pirəsora və Monidigah kəndlərinin mərkəzi küçələrində 600-dən çox işıqlandırma dirəyi quraşdırılmışdır. Monidigah kəndinə gedən avtomobil yolunun üzərində yeni körpü inşa edilir. Biləvər, Nüvədi və Durğan kəndlərinə gedən yolda körpülər inşa edilmişdir. Sors, Nisli, Çayrud, Bibiyani, Vizəzəmin və digər kəndlərə gedən avtomobil yolları kənd sakinlərinin təşəbbüsü və 52 nömrəli "Yol İstismarı" MMC-nin dəstəyi ilə təmir edilmişdir.

Ölkəmizdə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında" Prezidentin 2023-cü il 25 dekabr tarixli sərəncamının icrası ilə əlaqədar Lerik Rayon İcra Hakimiyyəti başçısının Tədbirlər Planı təsdiq olunmuşdur. Bunlara uyğun olaraq rayonda silsilə tədbirlərin həyata keçirilməsi davam etdirilir. Lerik şəhəri və rayonun yaşayış məntəqələrində yeni yaşıllıqlar salınır, təhsil, mədəniyyət müəssisələrində və rayonda fəaliyyət göstərən digər təşkilatlarda elmi konfranslar, intellektual və idman yarışları, ərazilərdə iməciliklər keçirilir.

Son dövrlər dövlət başçısı tərəfindən həyata keçirilən iqtisadi islahatlar sayəsində əhalinin güzəranı yaxşılaşmış, gəlirləri artmış, yaşayış səviyyələri yüksəlmişdir.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***